# ATA QƏDDARLIĞI, UŞAQ İZTİRABLARI

Şəfəq Nasirin “Əlvida demədim” povestinin mükəmməl işlənmiş obrazlarından biri, bəlkə də, birincisi ata obrazıdır. Ayrı-ayrı yazıçıların yaradıcılığında qəddar ana, zalım ata obrazları az deyil. Müəlliflər qəddar anaların, zalım ataların timsalında onları böyüdən, ərsəyə gətirən mühitə münasibət bildirməyə çalışıblar.

Yazıçılar, əslində, cəmiyyəti tədqiq edən psixoloqlardır. Onlar yaxşı bilirlər ki, üz qurluşu, boy, bədən görkəmi, hətta rəngləri belə bir-birinin bənzəri olan insanların olduğunu bilirlər. Ancaq onu da yaxşı bilirlər ki, xasiyyətinə görə biri digərinin eynisi olan iki şəxsi tapmaq olmaz. Hər halda indiyə qədərki psixoloji tədqiqatlar xasiyyətcə eyni olan adamlar haqqındakı faktı göstərə bilmir, belə bir faktın olduğunu təsdiq etmirlər. Şəfəq Nasir də yaratdığı ata obrazı ilə insan fərdiliyinin tipik mənzərəsini, lövhəsini yaradır. Bununla da “Əlvida demədim” povestindəki Aydın obrazı ilə tam orijinal bir sürət yaradır. Onun təbiətindəki qəddarlığı yaradan səbəblərin kökünü araşdırır. Əlbəttə, bu nə qədər psixoloji tədqiqat olsa da, elmi tədqiqat deyil. Yazıçı təsvirləri ilə müəllif psixoloji dərinliklərə baş vurmaqla ata Aydının faciəsini göstərir.

Aydın ali təhsilli ziyalıdır. Müəllimdi, özü də sadəcə müəllim deyil, o, mütəxəssis müəllimdir, ədəbiyyat bilicisidir. Azərbaycan klassik ədəbiyyatını dünya ədəbiyyatı müstəvisində öyrənmiş, əxz etmiş müəllimdir. Hər halda biz Aydın müəllimi əsərdə bu cür görürük. Elmi təfəkkürü, dərin biliyi ilə mühitinə meydan oxuyan güzəştsiz bir insandır. Prinsipialdır, əqidəlidir. Belə görünür ki, o həqiqət uğrunda mübarizədə hər cür iztirabı qəbul etməyə, hər cür əzabı çəkməyə hazırdır. Ancaq o unudur ki, Don Kixotluq mühitində ifrat həqiqətçilik onu, onun özünü belə, Don Kixota çevirə bilər. Beləliklə, danabaşların mühitində Aydın get-gedə təklənir. Hər tərəfdən onu qamçılayan nadanlıq mühiti ona gözəgörünməz yaralar vurur. Ardıcıl olaraq dalğaların döydüyü qayalar da dəyən zərbələrin altında ovulub gedir. Böyük uçqunlar yaranır.

Get-gedə Aydının xasiyyəti dəyişir. Acıdil, turşməzac, adama yovuşmaz olur. Gəncliyində ailəsinin qayğısını çəkən, doğma yurdundan didərgin olandan sonra ailəsini isti bir ocaqla təmin etmək üçün minbir çətinliyi dəf edərək ev tikir, ailəsini bir yerə yığır. Halal ruzisi ilə övladlarını böyütməyə başlayır. Əlbəttə, bu işdə ona vəfalı həyat yoldaşı da yardımçı olur. Onlar əl-ələ verərək bir-birinin arxasınca dünyaya gələn dörd qız və bir oğulu böyütməkdədirlər. Ancaq bünövrəsi halallıqla qurulmuş mühiti maarif çırağı ilə nurlanan ailənin bu qayğısız günləri çox çəkmir.

Məktəbdə savadsız müəllimlərin xəbisliklə ona qarşı yaratdıqları cəbhə getgedə daha çox güclənir. Onlar Aydını təkləməkdədirlər. Belə mühitdə şübhəsiz yuxarı dairələr də xəbislik cəbhəsini müdafiə edərsə, həmin cəbhə daha çox sərtləşəcək, daha çox təcavüzkar olacaq. Aydının taleyi belə bir tufanın içərisindədir. İşlədiyi mühitdən aldığı acılar onun varlığına hopur, daxilən onu didib-sökür. Bu acılar qəzəbə çevrilir. Və istər-istəməz ailə mühitində tufanlarla üzə çıxır. Aydın bir növ uşaqları unudur. Körpə balalarının hansı qayğını istədiyini yaddan çıxarır. Evdə uşaqların hər hansı bir sərbəst hərəkəti, hündürdən danışmaları, gülmələri belə, Aydının qəzəbini şahə qaldırır. Körpəcə qız balaları ilə yağı düşmənlə davranırmış kimi davranır. Hətta iş o yerə çatır ki, körpə balaları belə onun gözünə görünmək istəmir. Küncdə, bucaqda daldalanırlar.

Əsərdə beşinci sinifdə oxuyan Səma Aydınla eyni müstəvidə görünür. Ancaq bir-birinin əksi olaraq 11 yaşlı qız atasının nə qədər qəddar və qəzəbli olduğunu görür. Ancaq arzulayır ki, atası belə qəddar olmasın. O, hətta anası müəllimə olduğu üçün işə gedəndə, atası evdədirsə, ona hər cür qayğı göstərməyə çalışır. Bacarığı ilə öyünməsə də, atasına çay vermək, yemək bişirmək kimi ev işlərinin, mətbəx qayğılarının öhdəsindən gələ bilir. Bütün bunların atasının gözündə heç nə olduğunu dərk etmək balaca Səma üçün çox ağırdır. Hətta o, atasının gözləri önündən keçib gedəndə belə, onun iti, adamı qılınc kimi doğrayan nəzərlərini öz üzərində hiss edir. Bişirdiyi yeməyi, isti qazanı ocağın üstündən kənara çəkib aparanda yaşadığı gərginlik insan həyatının ən dözülməz məqamına çevrilir; o ki, ola uşaq. Ayaqları dolaşır və yemək dağılır. Belə anlarda, yəni insan bir qəzaya tuş gələndə və bu qəza hətta onun öz təqsiri ucbatından baş verəndə belə, adamlar ətrafdakılardan təskinlik umurlar. Bir xoş söz, dözümə çağıran, özünü bərpaya səsləyən mənəvi təpər istəyirlər. Aydın isə isti yeməyin dağılıb yandırdığı kiçik yaşlı qızına qəzəblə baxıb “topalsan, qoduq, rədd ol gözümün qabağından!” - deyir. Bu, daha qəddarlığın son həddidir. O həddidir ki, istər böyük olsun, istərsə də uşaq həmin qəzəbin qabağında şüşə kimi cilik-cilik olub tökülür. Şəfəq Nasir uşağın varlığına yönəlik olan bu təcavüzü sözün həqiqi mənasında psixoloji dəqiqliklə təsvirə gətirir: “Evimizin arxasına qaçdım, asfalt cığırın üstündə oturub hönkürtüylə ağladım. Bir də gördüm yalın ayaqlarımın üstü qıpqırmızı qızarıb. Amma qorxu-ağrını tamam unutdurmuşdu mənə. O günü axşamacan həyət-bacada, məhəllədə, darvaza ağzında keçirdim. Onun gözünə görünə bilmirdim. Axşamdan da xeyli keçirdi. Gözlərimdən yuxu axıb-tökülürdü. Həyətdə oturub gözləyirdim ki, atamın otağında işıq sönsün, mən də çəkilim alt evə, yerimə girib yatım. O isə əsəbi-əsəbi otağında var-gəl eləyirdi. Daha dözə bilmədim, barmaqlarımın ucunda alt evə keçdim. Amma nədənsə otaqda yatmağa ürək eləmədim. Mətbəxə palaz salıb uzandım, yun şalı da saldım üstümə. Həyətdən tapdığım iri qalın ağacı da qapının dəstəyindən keçirib divara dirəmişdim. Ürəyimdə Allaha yalvarırdım ki, noolaydı, atam aşağı düşməyəydi. Ay Allah, kaş anam tez gələydi. Atamla bizim aramızda dayaq körpüsü idi anam. Özü döyülərdi, söyülərdi, amma bizim qanımızın arasına girərdi. Allah, kaş bu gecə tez sovuşaydı”. Uşaq aləminin bu cür kəskin dağıntıya, dəhşətli zəlzələyə davam gətirməsi mümkün deyil. Balaca Səmanın həyatının ayrı-ayrı epizodları kimi danışdığı povestin üzə çıxardığı haqsızlıq, ədalətsizlik mühitində bir qoruyucu mələk də var. Bu, onun anasıdır, yəni Səmanın anası, Aydının arvadı. Uşaq əlacsızlıqla mətbəxin bir küncünə çəkilir, qapının arxasına ağac keçirir. Sanki o, bu saat üzərinə hücum edəcək bir yırtıcıdan, vəhşidən gizlənir. Təsvirdən də göründüyü kimi, yanıqları ilə göynəyə-göynəyə yerə palaz salır, üstünə uzanır, özünə örtük elədiyi bir şalla, ağrıları ilə, istirabları ilə baş-başa qalır. Onun üçün vaxt qarışqa yerişiylə gedən bir hərəkət rəmzidir. Onu bu girdabdan çıxaracaq bir qüvvə yoxdur. Vahiməli gözləri ilə pəncərədən həyətə baxır. Nəinki insanlar, divarlar, hətta həyətlərindəki ağaclar belə vahiməli gözlərində qorxunc, ölüm gətirən varlıqlar kimi görünür. Şəfəq Nasir uşağın yaşadığı hissləri o qədər təbii verir ki, oxucu həmin hisslərin dərinliyinə vardıqca, bir həyat romanının acıları ilə üz-üzə qalır.

Şəfəq Nasirin uşaq hisslərinin təsviri ilə yazılmış bədii lövhələri bu günün gənc yazarları üçün də ədəbi örnək kimi götürülə bilər. Dəhşətin, qorxunun, tənhalığın, kimsəsizliyin, köməksizliyin faciəsini Şəfəq Nasirin qələmi bütün ecazkarlığı ilə üzə çıxarır. Biz Səmanın yaşadığı qara-qorxulu aləmi zamanın və məkanın, hətta iştirakçıların fərqli mühitində olan uşaqların taleyini görürük. Bəzən unuduruq ki, gələcəyimizi təkcə yağı düşmən məhv etməyə çalışmır, həm də biz özümüz də qəddarlığımızla, uşaqların taleyinə yadlığımızla özümüz də məhv edirik.

Düşünmək olardı ki, Şəfəq Nasir naturadan çəkilmiş şəkil kimi bu lövhələrdə bəlkə ifrata varır. Ancaq onun həyatın reallıqlarına tabe olan, həyatın reallıqlarını əks etdirən lövhələri ayrı-ayrı zamanlarda yaşadığımız və yaxud şahidi olduğumuz həyat hadisələrini gözlərimizin önünə gətirir. Sənətkarlığın, yazıçı ustalığının gücü də elə burasındadır ki, müəllif bizi ifrata varmaq hissindən uzaqlaşdırır. Biz özümüzü hadisənin içində hiss edirik. Sanki balaca Səmanın yerindəyik. Bəs, Səma bu qarşısı alınmaz gücə qarşı mübarizədə donuqdurmu, o həqiqətən gücsüzdürmü? Öz taleyini xilas etmək naminə çıxış yolu axtarırmı? Atalıq hissini unutmuş olan qəddarın yeni gəlişi olacaqmı? Səmanın qorxduğu da elə budur: “Mətbəxin pəncərəsindən həyətə boylandım. Ağacların hər biri gözümə qorxulu heyvanlar kimi görünürdü. Tez palazın üstündə uzanıb şalı çəkdim başıma. Ürəyimdə öz-özümə “qorxma, qorxma” - pıçıldadım. Qorxu-səksəkədə nə vaxt yuxuya getdiyimi bilmədim. Onda gördüm ki, qapı zərblə açıldı. Dik qalxdım. Qaranlıqda atamın göy gözləri par-par yanırdı. Dilim-dodağım əsdi. O qorxulu anlarda fikirləşdim ki, görəsən, qapını necə açıb. Titim-titim titrəyən ürəyimin çırpıntısını eşidirdim. Atam başımın üstünü kəsdirib nəsə deyirdi. O, qolumdan tutub bayıra çəkdi. Amma nə dediyi heç mənə çatmadı. Deyəsən kar-lal olmuşdum. Bu dəm hardansa mənə güc gəldi, dəmir barmaqların arasından qopub özümü həyətə atdım. Arxamca daş kimi atılan səs eşitdim.

-Bütün günü harda veyillənmisən, küçük! Öz başına olub!

Deyəsən qulaqlarım açılmışdı. Sürətlə, ürəyim ağzımdan çıxa-çıxa, qorxunc heyvanabənzər ağacların arasıyla darvazaya sarı qaçırdım.

-Qoy bir səhər açılsın, kötək yeyərsən, ağlın başına gələr.

Yəqin güman edibmiş ki, evin küncbucağında gizlənmişəm, o üst evə qalxanda mən də öz yerimə keçib yatacam...” Səma hələ ki, bu mübarizədə tək deyil, onun düşüncələri vahimədən xilas etmək yollarını axtaran uşaq hissləri, duyğuları onunla birgədir. Bu hisslər, bu duyğular onu tək qoymur. Baxmayaraq ki, qəddarlıq artıq onun başının üstünü kəsdirib, onu izləməkdədir. Heç bir hədd gözləməyən, sonsuz qəzəbləri ni ifadə edən sözləri, hədələri vahimə mühitini bir qədər də qatılaşdırır. İndi o daha başqa çıxış yolu tapmalıdır. O anlayır ki, bu divarların arası, yəni doğulub böyüdüyü evin özü belə onu xilas etmək iqtidarında deyil. Nə qədər vahiməli olsa da, öz taleyini gecənin qaranlığına həvalə etmək, yırtıcı qəzəbdən xilas olmaq üçün yeganə çıxış yoludur. Bu intihar deyil, uşağın öz taleyi uğrunda apardığı mübarizədir. Bütün varlığı ilə gücünü səfərbər edərək qaranlığın vahiməsini yarıb keçmək üçün bayıra çıxır. Şəfəq Nasir uşağın gecə qaranlığındakı yaşantılarını əsil həyat faciəsi kimi Səttar Bəhlulzadənin “Ölməz” əsərindəki “Kəpəzin göz yaşları” kimi ifadə edir. Səttar Bəhlulzadənin təsvirində dağın ağlayışını görürük, dağın yaşantılarını görürük, 20 yanvar faciəsini görürük, Kəlbəcər, Murov faciəsini görürük. Və bu gördüklərimizdə biz Şəfəq Nasirin gecə qaranlığında işıq kimi keçib gedən Səmanın varlığını görürük. Nə fərqi var, insan haqsızlıqla qarşılaşanda yaşadığı tale iztirabları düşmənindən, taleyindən, zamanından asılı olmayaraq eynidir. Şəfəq Nasirin balaca Səması məhz özünü haqlı bildiyi üçün bu gecə qaranlığında məhv olmur. Özünün məsumluğu ilə gecə qaranlığının gətirdiyi bütün vahimələrə (itlərin hücumuna) qalib gəlir. Onun sinəsində döyünən balaca ürəyi quş ürəyi kimi çırpınır. Amma bu çırpınmalar onun düşüncələrini əlindən ala bilmir. Onun ayaqlarına güc verir, dizlərinə təpər verir. Yeriməklə, qaçmaqla belə mühitindən uzaqlaşmaqda ona kömək edir. Özünü rəfiqəsi Sədəf gilə, anası Əsmət xalanın yanına çatdırmaq istəyir. Kasıb bir komada iki qardaş, üç bacısı ilə anasının yanında olan Sədəfin xoşbəxtliyini görüb ona qibtə eləyir. İndi onun nəzərlərində bu kasıb koma, balaca birotaqlı ev onun atalı-analı dünyasından, ikimərtəbəli evlərindəki həyatından daha üstündür, daha dəyərlidir; Səma yeriyir, inadından dönmür, ümidinin işığına doğru qaçır: “Ayaqlarım açıldı, titrətməm çəkildi, yenə yolun ağına düşüb getdim. Hara gedirdim, bilmirdim, təkcə onu bilirdim ki, evimizə qayıdan deyiləm. Bir-bir darvazaları ötüb keçirdim. Bu qatı gecədə hardansa Sədəf yadıma düşdü. Rəfiqəmiydi. Yeddi ev bizdən o yanda idilər. Bir də baxıb gördüm ki, onların darvazasının ağzındayam. İçəri keçdim. Birmərtəbəli iki gözdən ibarət olan bu evdə Sədəf üç bacısı, iki qardaşı və anasıyla yaşayırdı. Asta-asta, ehtiyatla qapıya gəldim. Gecə bürkü olduğundan yataq otaqlarının qapısı açıq idi. yoldakı şalbandan asılmış gecə lampasının zəif işığı onların yataq otağına düşürdü. Bu zəif işığın altında mən kölgələri seçə bildim. Əsmət xala balalarıynan yerdə yatmışdılar. Mışıltılarını aydın eşidirdim. Ürəyimdə fikirləşdim ki, necə xoşbəxtdilər, qorxusuz-hürküsüz, şirin-şirin yatırlar. Kaş onların yerində olaydım”. Ürək dağlayan mənzərədir. Elə bir daşürəkli kimsə tapılmaz ki, bu sətirləri oxuyarkən sarsılmasın. Hətta əsərin müvafik yerindən seçdiyimiz bu parçalar belə, bəs eləyir ki, böyüklüyündən-kiçikliyindən asılı olmayaraq insanın yaşadığı faciələrin dərinliyinə vara bilək.

Aydın mühitinin böyük faciə qəhrəmanıdır. O, mühitinə qarşı mübarizə apara bilmədiyi üçün, daha doğrusu, daha düzgün mübarizə yolu seçə bilmədiyi üçün məğlubiyyətə məhkumdur. Nəhayət, onun polad kimi möhkəm bədəni öz içərisinə yığılmış qəzəbi qarşısında davam gətirə bilmir. Şəfəq əsərdə ikinci bir xoşbəxt ailəni də oxucu gözlərinin önünə gətirir. Bu, onun şirinliklə Laləzar xala dediyi qadının ailəsidir. Rəfiqəsi Şövkətin anası Laləzar xala, atası Mikayıl dayı necə sadə, mehribandılar. Kifayət qədər müqayisə imkanları verən bu ayrı-ayrı ailələrin timsalında insanlıq mühitini görür və qənaətə gəlirik ki, axı belə xoşbəxtlikləri hər kəs yaşaya bilər, hər kəs qazana bilər.

Şəfəq Nasir “Əlvida demədim” povestinin bu dəhşətli məqamlarını nikbinliklə bitirir. Səma evə qayıdır və düşünür: “Anam yanımdaydı, əsəbi atamla aramızda dayaq körpüsü olan anam...” Bu sözlərdə olan işıq cəmiyyətdə olan haqqsızlıq hökmünün nəhayət nizama tabe olacağından xəbər verir.

Şəfəq Nasir “Əlvida demədim” povestində bir ailənin faciəli taleyini yazıya gətirib. Firuzənin başına gələnlər, Aydının bütün qəddarlığına baxmayaraq ona qayğı göstərən ana iztirabları, təkrarsız bədii lövhələrlə oxucu gözlərinin önündən keçir, yaddaşa yazılır. Özü də heç vaxt unudulmayacaq təəssüratla yazılır...

*(Davamı var)*